Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun İdarə Heyətinin ___________ tarixli ______№-li qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Keyfiyyətə nəzarət departamentinin**

# Ə S A S N A M Ə S İ

## 1. Ümumi müddəalar

**1.1.** Bu Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 may tarixli 220 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi"nə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin (bundan sonra – İnstitut) Keyfiyyətə nəzarət departamentinin (bundan sonra – Departament) əsas fəaliyyət istiqamətlərini, vəzifələrini, hüquqlarını, fəaliyyətinin təşkili qaydalarını müəyyən edir;

**1.2.** Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"ni, "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi"ni, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarını, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Kollegiyasının qərarlarını, Agentliyin sədrinin əmr və sərəncamlarını, Agentliyin sədr müavinlərinin və Aparat rəhbərinin göstərişlərini, İnstitutun İdarə Heyətinin sədrinin əmrlərini və sərəncamlarını, İdarə Heyətinin qərarlarını, İdarə Heyətinin sədr müavinlərinin göstərişlərini və bu Əsasnaməni rəhbər tutur;

**1.3.** Departament öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən İnstitutun digər struktur bölmələri, mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Departamentin fəaliyyət istiqamətləri

**2.1.** Departament aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

**2.1.1.** laboratoriyaların keyfiyyət idarəetmə sistemini qurur, həyata keçirilən cari və funksional işlərin icra vəziyyətinə daxili yoxlamalar vasitəsi ilə nəzarət edir;

**2.1.2.** İnstitutun digər struktur bölmələrində minimum keyfiyyət idarəetmə standartının tələblərinin tətbiqi üzrə təşkilati-metodiki dəstək verir;

**2.1.3.** keyfiyyətə nəzarət sisteminin standartlarının keyfiyyətin idarə edilməsi üzrə milli və beynəlxalq standartlara uyğunlaşdırılması, onların effektiv tətbiq olunmasını və sistemin dayanıqlı olub-olmamasını müəyyənləşdirmək üçün planlı və plandankənar yoxlamalar aparır,

keçirilmiş audit yoxlamalarının hesabatlarını hazırlayaraq laboratoriya müdirləri ilə yanaşı müvafiq departamentə təqdim edir;

**2.1.4.** Departamentin fəaliyyətinə əsasən aylıq, rüblük və illik hesabatları tərtib edərək rəhbərliyə təqdim edir;

**2.1.5.** planlı və plandankənar yoxlamalar zamanı laboratoriyalarda müvafiq standartların tələblərinə zidd olan nöqsanları və çatışmazlıqları aşkarlayır və buna uyğun olaraq laboratoriyalardan düzəldici fəaliyyətlər üzrə görülən işləri tələb edir;

**2.1.6.** səlahiyyətlərinə aid olan məsələlər üzrə keyfiyyətə nəzarət yoxlamalarının həyata keçirilməsinin forma və metodlarını müəyyən edir və onları təkmilləşdirir;

**2.1.7.** laborator müayinələrin spektrinin genişləndirilməsi və müayinə çeşidlərini artırmaqla keyfiyyət sahəsində göstəricilərin yüksəldilməsinə istiqamətləndirilmiş tədbirlərin keçirilməsi ilə bağlı təkliflər verir;

**2.1.8.** işin (xidmətin) keyfiyyətinin artırılması, elm və texnikanın müasir inkişaf səviyyəsinə, milli və beynəlxalq standartların tələblərinə uyğun olmasınının təmin edilməsi üzrə tədbirləri həyata keçirir;

**2.1.9.** laboratoriyaların səriştəlilik sınaqlarının nəticələrinin qiymətləndirilməsini təhlil edir, eləcə də fəaliyyət istiqaməti üzrə yeni istiqamətləri və qabaqcıl beynəlxalq təcrübəni mütəmadi olaraq öyrənərək tətbiqi üzrə təkliflər verir;

**2.1.10.** qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Departamentin vəzifələri

**3.1.** Departamentin bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri vardır:

**3.1.1.** laboratoriyalarda tətbiq edilən İSO/İEC 17025:2017 ”Sınaq və Kalibrləmə laboratoriyalarının səlahiyyətliliyinə ümumi tələblər” standartı əsasında keyfiyyət idarəetmə sisteminin qurulmasını təmin etmək, keyfiyyət idarəetmə sisteminin tələblərindən irəli gələn prosedur, təlimatların hazırlanmasında iştirak etmək;

**3.1.2.** laboratoriyaların yerli və beynəlxalq akkreditasiyadan keçirilməsi üçün ISO/IEC 17025 “Sınaq və Kalibrləmə laboratoriyalarının səlahiyyətliliyinə ümumi tələblər” standartına uyğun olaraq keyfiyyətə idarəetmə sisteminin tələblərindən irəli gələn prosedur, təlimatların hazırlanmasında iştirak etmək;

**3.1.3.** akkreditasiya sənədlərinin hazırlanmasında və laboratoriyaların milli və beynəlxalq akkreditasiyadan keçməsi tədbirlərinin həyata keçirilməsində iştirak etmək;

**3.1.4.** laboratoriyaların idarəetmə sisteminin nəzərdə tutulan nəticələrə, məqsəd və vəzifələrinə nail olmaq üçün imkanların gücləndirilməsi, təkmilləşdirilməsinə nail olmaq üçün laboratoriya işləri ilə əlaqədar riskləri və imkanları nəzərdə keçirmək;

**3.1.5.** uyğunsuzluqların təkrarlanmaması və ya yenidən baş verməməsi məqsədilə həmin uyğunsuzluqların səbəb(lər)ini nəzərdən keçirmək, təhlil etmək və qiymətləndirmək;

**3.1.6.** İSO/İEC 17025 “Sınaq və Kalibrləmə laboratoriyalarının səlahiyyətliliyinə ümumi tələblər” standartının tələblərindən irəli gələn performans indikatorlarını hazırlamaq və nəzarətinin həyata keçirilməsində İnstitutun müvafiq qurumları ilə birlikdə iştirak etmək;

**3.1.7.** laboratoriyaların fəaliyyət istiqamətinə uyğun olaraq yeni metodların araşdırılması, tətbiq edilməsində iştirak etmək;

**3.1.8.** beynəlxalq və milli akkreditasiya zamanı aşkar olunmuş uyğunsuzluqların aradan qaldırılması üçün İnstitutun müvafiq qurumları ilə birgə fəaliyyət göstərmək;

**3.1.9.** İnstitutun müvafiq qurumları ilə birlikdə laboratoriyaların optimallaşdırılması, modernləşdirilməsi və tətbiq ediləcək yeni metodların araşdırılması, harmonizasiyası və tətbiqində iştirak etmək;

**3.1.10.** tətbiq edilən metodların verifikasiyası, validasiyası və ölçmə qeyri-müəyyənliyi nəticələrinin yoxlanılması və qiymətləndirilməsini, eləcə də laboratoriyaların işçi heyətinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsini həyata keçirilməsində iştirak etmək;

**3.1.11.** fəaliyyəti ilə bağlı aylıq, rüblük və illik arayış və hesabatlar hazırlayaraq rəhbərliyə təqdim etmək;

**3.1.12.** İnstitutun struktur bölmələrinin və onun tabeliyində olan qurumların fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi ilə əlaqədar aidiyyəti struktur bölmələrlə birlikdə təkliflər hazırlamaq;

**3.1.13.** Dövlət Proqramlarında, Strateji Yol Xəritələrində, Strateji Planlarda və Fəaliyyət Planlarında Departamentin fəaliyyət istiqamətləri üzrə qeyd olunmuş tədbirlərin həyata keçirilməsində iştirak etmək;

**3.1.14.** Departamentin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

**3.1.15.** Departamentə daxil olan ərizə, şikayət və təkliflərə baxmaq və müəyyən edilmiş qaydada tədbirlər görmək;

**3.1.16.** rəhbərlik tərəfindən departamentə tapşırılmış vəzifələri yerinə yetirmək;

**3.1.17.** laboratoriyaların keyfiyyət siyasətinin və illik hədəflərinin müəyyənləşdirilməsində iştirak etmək;

**3.1.18.** fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Departamentin hüquqları

**4.1.** Departament öz vəzifələrini yerinə yetirərkən aşağıdakı hüquqlara malikdir:

**4.1.1.** İnstitutun tərkibində fəaliyyət göstərən sınaq laboratoriyalarında planlı və plandan kənar daxili audit yoxlamaları keçirmək;

**4.1.2.** bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi məqsədilə yoxlama tədbirlərinin aparılması zamanı faktların və ayrı-ayrı halların tam, vaxtında və hərtərəfli araşdırılması məqsədilə, yaranmış zərurətlə əlaqədar müvafiq bölmələrdən daxili yoxlama tədbirlərinin tələblərinə uyğun formada, müddətdə və dövrlər üzrə lazımi məlumatları, sənədləri, arayışları, hesabatları almaq;

**4.1.3.** Departamentin funksional fəaliyyəti ilə bağlı və səlahiyyəti daxilində rəhbərliyin razılığı ilə müvafiq sahədən ekspertlərin və mütəxəssislərin cəlb olunması, digər struktur bölmələrindən zəruri sənədlərin təqdim olunmasını tələb etmək;

**4.1.4.** İnstitutun təkibində fəaliyyət göstərən sınaq laboratoriyalarında yerli və beynəlxalq akkreditasiya qurumları tərəfindən həyata keçirilən uyğunluğun qiymətləndirilməsi prosesində iştirak etmək;

**4.1.5.** İnstitutun tabeliyində fəaliyyət göstərən laboratoriyalar arasında qarşılaşdırma (müqayisə) sınaqlarının planının hazırlanmasında iştirak etmək;

**4.1.6.** müstəqil ekspertləri və mütəxəssisləri, elmi təşkilatları rəhbərliklə razılaşdıraraq qanunvericiliklə müəyyənləşdirilmiş qaydada fəaliyyətə cəlb etmək;

**4.1.7.** fəaliyyət istiqamətləri üzrə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər hazırlamaq;

**4.1.8.** bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə, İnstitutun struktur bölmələrinə və onun tabeliyində olan qurumlara məlumatlar (sənədlər) barədə sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

**4.1.9.** İnstitutun struktur bölmələri və onun tabeliyində olan qurumlarda, habelə dövlət qurumlarında yaradılmış komissiyaların və işçi qrupların işində, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə iştirak etmək;

**4.1.10.** fəaliyyət istiqamətlərinə uyğun olaraq xarici dövlətlərin təcrübəsini öyrənmək, qida təhlükəsizliyi üzrə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək və təkliflər hazırlamaq;

**4.1.11.** fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Departamentin fəaliyyətinin təşkili

**5.1.** Departamentin fəaliyyətinə İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (bundan sonra ismin müvafiq hallarında – Departament müdiri) rəhbərlik edir. Departament müdiri departamentə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır;

**5.2.** Departament müdirinin İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Departament müdirinin müavini departament müdiri tərəfindən ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Departament müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada departament müdirinin müavini və ya İdarə Heyətinin sədri tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir;

**5.3.** Departamentin digər əməkdaşları İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir;

**5.4.** Departament müdiri:

**5.4.1.** Departamentin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

**5.4.2.** tabeliyində olan şöbələr və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək və icra intizamına riayət etmələrinə nəzarət edir;

**5.4.3.** Departamentə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

**5.4.4.** Departamentin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün İnstitutun rəhbərliyinə təqdimatlar verir;

**5.4.5.** Departamentin vəzifələrini yerinə yetirmək üçün İnstitutun digər struktur bölmələrindən məlumat və sənədləri alır;

**5.4.6.** Departamenti təmsil edir.

**5.5.** Departament 2 şöbədən ibarətdir:

**5.5.1.** Keyfiyyətin idarə olunması şöbəsi;

**5.5.2.** Keyfiyyət üzrə daxili audit şöbəsi.

**5.6.** Departamentin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məsuliyyət daşıyırlar.